# Türk dünyasının ilk qadın vəkili

**İyunun 2-də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və Özbəkistan Respublikasının Vəkillər Palatasının birgə təşəbbüsü ilə türk dövlətlərinin ilk qadın vəkili Sürəyya Ağaoğlunun 120 illik yubileyinə həsr edilən “Gender bərabərliyi beynəlxalq insan hüquqlarının hissəsi kimi” mövzusunda beynəlxalq konfrans keçirilib.**




Tanınmış vəkilin ömür yolu və fəaliyyətindən danışan Anar Bağırov deyib ki, Sürəyya xanım 1903-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində Azərbaycanın və Türkiyənin görkəmli ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlunun ailəsində dünyaya gəlib. 1920-ci ildə İstanbul Qızlar Liseyini bitirib. 1921-ci ildə İstanbul Hüquq Fakültəsinə qəbul olub və bununla da hüquq fakültəsinin qapısının qız tələbələrin üzünə açılmasında rol oynayıb. Məzun olduqdan sonra vəkillik fəaliyyəti ilə məşğul olmağa başlayan Sürəyya xanım Beynəlxalq Qadın Hüquqşünaslar Cəmiyyətinin ikinci prezidenti seçilib və ömrünün sonuna qədər vəkilliklə məşğul olub.

Sonra Sürəyya Ağaoğlunun həyat və yaradıcılığına həsr olunan film nümayiş olunub.

Tədbirdə Özbəkistan Respublikası Vəkillər Palatasının sədri Alim Ernazarov çıxış edərək deyib ki, Azərbaycanla Özbəkistanın mədəniyyəti, mentaliteti, dünyagörüşü oxşardır. Qeyd edib ki, Özbəkistan Vəkillər Palatasının 5 minə yaxın vəkili var. Onların təxmini 22 faizini qadınlar təşkil edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva azərbaycanlı qadınların cəmiyyətin bütün sahələrində olduğu kimi hüquq sahəsində də fəal fəaliyyət göstərdiklərini deyib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, istənilən demokratik cəmiyyətin xarakteri onun insan hüquqlarına münasibəti, xüsusilə onun tərkib hissəsi olan gender bərabərliyi, qadın hüquqlarına, uşaqların problemlərinə necə yanaşmasından asılıdır. Azərbaycanın bu sahədə gözəl tarixi ənənəsi var. Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə olub.

Azərbaycanın tarixən tolerantlığı ilə seçilən ölkə olduğunu söyləyən Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərov diqqətə çatdırıb ki, ölkəmizdə qadınlara seçki hüququ bir çox ölkələrdən qabaq verilib.

Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov deyib ki, hazırda prokurorluq orqanlarında 470 qadın əməkdaş fəaliyyət göstərir.

Hibrid qaydada keçirilən və üç sessiyadan ibarət konfransda doqquz ölkənin Vəkillər kollegiyalarının rəhbər şəxsləri və nümayəndə heyətinin üzvləri gender bərabərliyi ilə bağlı müxtəlif mövzularda çıxışlar edib, mövcud problemlər, onların həll yolları barəsində məlumat veriblər və geniş fikir mübadiləsi aparılıb.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 3 iyun.- S.13.